# *8 NOYABR – AZƏRBAYCANIN ZƏFƏR GÜNÜ*
# *8 НОЯБРЯ – ДЕНЬ ПОБЕДЫ АЗЕРБАЙДЖАНА*
# *NOVEMBER 8 – VICTORY DAY OF AZERBAIJAN*

*UOT 37.0*

***İradə Böyükağa qızı Əmirəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*
*https://orcid.org/0000-0002-3319-7466*

***Lalə Akif qızı Məmmədli***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi*
*https://orcid.org/ 0000-0003-0686-3627*

## ZƏFƏR BAYRAMI TƏHSİLALANLARDA VƏTƏNPƏRVƏRLİYİN TƏRBİYƏ OLUNMASININ MÜHÜM VASİTƏSİ KİMİ

***Ирада Боюкага гызы Амиралиева***
*доктор философии по педагогике*
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики*

***Лала Акиф гызы Мамедли***
*доктор философии по педагогике,*
*ведущий специалист Института Образования Азербайджанской Республики*

## ПРАЗДНИК ПОБЕДЫ КАК ВАЖНОЕ СРЕДСТВО ВОСПИТАНИЯ ПАТРИОТИЗМА У ОБУЧАЕМЫХ

***Irada Boyukagha Amiraliyeva***
*doctor of philosophy in pedagogy*
*leading scientific worker at the Institute of Education of the Republic of Azerbaijan*

***Lala Akif Mammadly***
*doctor of philosophy in pedagogy*
*leading specialist at the Institute of Education of the Republic of Azerbaijan*

## VICTORY HOLIDAY AS AN IMPORTANT MEANS OF EDUCATION OF PATRIOTISM AMONG STUDENTS

**Xülasə.** Ermənistan ordusu Azərbaycan torpaqlarını tutmuşdu. Bu işğal təxminən 30 il çəkdi. Azərbaycan xalqı silaha sarılaraq, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan ordusunun köməyi ilə düşməni torpaqlarımızdan qovdu. 8 noyabr ölkəmizdə Zəfər bayramı kimi qeyd olunur. Zəfər günü ilə əlaqədar şagirdlər və tələbələrlə tədbirlərin keçirilməsi lazımdır.
***Açar sözlər**: Zəfər günü, bayram, düşmən, erməni işğalçıları, torpaqların azad olunması*

**Резюме.** Армянская армия оккупировала земли Азербайджана. Эта оккупация длилась около 30 лет. Народ Азербайджана взялся за оружие и под руководством Верховного главнокомандующего Ильхама Алиева и при помощи азербайджанской армии изгнал врага с наших земель. 8 ноября в нашей стране отмечается День Победы. В связи с Днем Победы необходимо провести мероприятия со школьниками и студентами.
***Ключевые слова:** День Победы, праздник, враг, армянские захватчики, освобождение земель*

**Summary.** The Armenian army occupied the lands of Azerbaijan. This occupation lasted for about 30 years. The people of Azerbaijan took up arms and, under the leadership of the Supreme Commander-in-Chief Ilham Aliyev and with the help of the Azerbaijani army, expelled the enemy from our lands. On November 8, Victory Day is celebrated in our country. In connection with Victory Day, it is necessary to hold events with schoolchildren and students.

***Key words:*** *Victory Day, holiday, enemy, Armenian invaders, liberation of lands*

Bir çox ölkələrdə milli-azadlıq hərəkatı, Vətən müharibələri olmuşdur. Tarix dərslərində 1812-ci il Rusiya-Fransa imperiyaları arasında olan müharibə barədə məlumat almışıq. Rusiya tarixinə bu müharibə Vətən müharibəsi kimi düşmüşdür. Avropada Rusiya kimi güclü dövlətin varlığını istəməyən Napoleon Bonapart Fransa ordusunu Rusiya üzərinə yönəltdi. Bir ara Moskva tutuldu, odlara qalandı, son nəticədə Fransa ordusu məğlub oldu. Mənbələrdə, tarix kitablarında ruslar bu müharibəni vətən müharibəsi adlandırırlar.

XX əsrin qırxıncı illərində - 1941-ci ildə Almaniya ordusu SSRİ üzərinə hücum etdi. Bu müharibə haradasa 5 il davam etdi. SSRİ xalqları ölkəni müdafiə etmək, təcavüzkarı qovmaq üçün ayağa qalxdı. Bu müharibə isə, Böyük vətən müharibəsi adlandırıldı. Sovet İttifaqı Almaniya və onun müttəfiqləri ilə apardığı müharibəyə belə ad verdi. Bu müharibədə də almanlar məğlub oldular. 1941-ci ildə Almaniya ordusunun tərkibi 7 milyon 300 min nəfər idi, eyni zamanda döyüşlərdə Almaniya tərəfindən 1 milyon 200 min muzdlu qatılmışdı. II Dünya müharibəsində təxminən 70 dövlət iştirak etmişdi. “2 sentyabr 1945-ci il tarixində sona yetən müharibə 10 milyonlarla insanın ölümünə səbəb oldu: döyüş meydanlarında, əsirlikdə, konslagerlərdə 27 milyon hərbi xidmətçinin həyatı sona yetdi. Bundan başqa müharibə 25 milyona yaxın dinc əhalinin həyatına son qoymuşdu” (1).

SSRİ ordu sıralarına Azərbaycandan 600 min nəfər səfərbərliyə alınmış, döyüşlərdə onlardan 300 min nəfəri həlak olmuş, xeyli adam yaralanmışdı.

Əlcəzair Xalq Demokratik Respublikası 1962-ci ildə elan olunub. O vaxta qədər Fransanın müstəmləkəsi idi. Əlcəzairlilər 1954-cü ildə Fransız zülmünə qarşı milli-azadlıq mübarizəsinə qalxdı. Bu hərəkata Milli Qurtuluş Cəbhəsi rəhbərlik edirdi. Məqsəd: Əlcəzairi fransız müstəmləkəsindən qurtarmaq, respublika yaratmaq idi. Mübarizə 8 il davam etdi və Fransa atəşkəslə bağlı Evian sazişini imzalamalı oldu. Bu milli-azadlıq müharibəsində Əlcəzair xalqı milyon yarım insan itirdi.

Yaxınlarda, 2022-ci il noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Əlcəzair XDR prezidentinin dəvəti ilə Zirvə toplantısında Fəxri qonaq statusunda iştirak etməkdən ötrü həmin ölkəyə rəsmi səfərə getmişdi. Möhtərəm Prezidentimiz Əlcəzairdə Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət edərək, abidənin önünə əklil qoymuşdur.

Xain qonşularımız 2 əsrdən artıqdır ki, qara yara kimi xalqımızın qanına susayıb, harada imkan əllərinə düşürsə, azərbaycanlıları qətlə yetirir, torpaqlarımızı zəbt edir, meşələrimizi yandırır, çaylarımızı zəhərləyir, qızları, gəlinləri, uşaqları əsir götürür, onlara min əziyyət verirlər. Hətta elə cəza tədbirlərinə əl atırlar ki, bəşəriyyət onları yatar yuxusunda da görməmişdir.

Havadarlarına arxalanaraq Azərbaycan torpaqlarında özləri üçün dövlət yaratmışlar, İrəvan xanlığının başkəndini özləri üçün paytaxt seçmişlər. XX əsrin əvvəllərindən başlayaraq mərhələ-mərhələ azərbaycanlıları öz dədə-baba yurdlarından, indi Ermənistan adlanan, əslində Qərbi Azərbaycan olan torpaqlardan qovub çıxarmışlar. Bunlar azmış kimi, Azərbaycanın dilbər guşələri olan Kəlbəcəri, Laçını, Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını, Zəngilanı, Şuşanı zəbt edərək 30 il girov kimi saxlamış, sərvətlərini mənimsəmiş, evləri, sənaye, mədəniyyət və s. tikililəri dağıtmış, necə deyərlər, ələ keçirdikləri rayon və şəhərlərimizdə daşı daş üstə qoymamışlar.

Nəhayət, 2020-ci il sentyabrın 27-də sərhədlərimiz boyunca ermənilərin növbəti silahlı təxribata başlamasına cavab olaraq, Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuz hərəkətə gəldi.

Dünya heyrət içərisində idi. erməni ordusunun əsgərləri və zabitləri hərbi texnikalarını ataraq, döyüş meydanından qaçırdılar. Azərbaycan Silahlı Qüvvələri düşmənin on illərlə qurduqları istehkamları aşaraq, səngərləri dağıdaraq ildırım sürətilə irəliləyirdi.

Azərbaycan ordusu müasir silahlarla silahlanmışdı. Pilotsuz döyüş təyyarələrimiz erməni ordusuna divan tuturdu.

II Qarabağ müharibəsi cəmi 44 gün çəkdi. Ermənilər Azərbaycan torpaqlarını tərk etdilər, əsas strateji yüksəkliklər də işğaldan azad oldular, erməni ordusu məhv oldu, ondan əsər-əlamət qalmadı. Çoxsaylı döyüşçü itirdilər. Məcbur olub təslimçilik aktı imzaladılar.

II Qarabağ müharibəsi Vətən müharibəsi adlanır. İyirminci yüzilliyin ortalarında baş tutan, Böyük Vətən müharibəsi adlanan müharibədə azərbaycanlılar SSRİ tərəfindən vuruşurdularsa, daha çox bu imperiyanı, respublikaları müstəmləkə altında saxlayan ölkənin müdafiəsi naminə ayağa qalxmağa məcbur edilmişdilərsə, II Qarabağ müharibəsində doğma yurdumuzu erməni qəsbkarlardan azad etmək, onlara öz yerlərini göstərmək üçün könüllü şəkildə vuruşurdular.

Bu, biz azərbaycanlılar üçün həqiqi Vətən müharibəsidir!

Doğma Vətənimiz üçün vuruşdular. Şəhidlik zirvəsinə qalxdılar, qazı oldular! Ölkəmizdə şəhidlərin xatirəsi əziz tutulur, qazilər, müharibə iştirakçıları, şəhid ailələri üçün hər cür şərait yaradılır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında **Zəfər Günü** kimi təntənəli şəkildə qeyd edilir. "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli digər Sərəncamı ilə Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması qərara alınmışdır" (2).

II Qarabağ müharibəsindən sonra Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, təhlükəsizliyinin qorunması istiqamətində səmərəli işlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti ölkəmizin xaricdə nüfuzunun artmasına böyük kömək göstərir. Onun xarici ölkələrə rəsmi, işgüzar səfərləri dünyanın Azərbaycan həqiqətləri ilə yaxından tanış olmasına imkan verir.

2021-ci il iyunun 15-də Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasındakı müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi imzalanmışdır.

Bəyannamədə deyilir: "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirərək, bəyan edirlər: Tərəflər iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin durumundan məmnunluq ifadə edərək siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.

Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi.

Azərbaycan ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir..." (3).

Hələ 2 il bundan əvvəl təslimçilik müqaviləsini imzalamağa məcbur olan ermənistan məğlubiyyətindən özü üçün nəticə çıxarmayaraq atəşkəsi pozur, sülh danışıqlarını müxtəlif bəhanələrlə yubadır. Azərbaycan və ermənistan liderləri iki dəfə Avropa İttifaqının Prezidenti Çarles Miçelin vasitəçiliyi ilə Brüsseldə, Rusiya Federasiyasının prezidenti Putinin vasitəçiliyi ilə Soçidə görüşüblər.

Görüşlərdən sonra ermənistanın baş naziri Nikol Paşinyanin hər dəfə olduğu kimi yenə də ikili siyasət yeritdiyi aşkarlanıb. O, görüşlərdə bir söz deyir, görüşlərdən sonra bir söz. Bu, bir ölkə başçısı olaraq onun nə qədər simasız, qeyri-ciddi olduğunu göstərir. Erməni tərəfi ağır silahlardan Azərbaycan ordusunun mövqelərini atəşə tutmaqda davam etməkdədir. Amma hər dəfə də onlar layiqli cəzalarını alırlar.

Bu il oktyabrın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Soçi şəhərdə Bəyanat imzalamışlar. Bəyanatda deyilir: "Azərbaycan-ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılması, sülhün, sabitliyin, təhlükəsizliyin və Cənubi Qafqazın davamlı iqtisadi inkişafının təmin edilməsi naminə göstərilən bütün razılaşmalara dönmədən riayət edilməsinə sadiq olduğumuzu təsdiq etdik. Qalan məsələlərin, o cümlədən humanitar məsələlər blokunun təxirə salınmadan həllinə yönəlmiş əlavə səylər göstərmək barədə razılaşdıq (3)".

Daha sonra bildirilir ki, "Güc tətbiq etməkdən və ya onu tətbiq etməklə hədələməkdən çəkinmək və bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə və həll etmək barədə razılığa gəldik" (5).

Gözləmək olar ki, Ermənistan bu bəyanatdan çıxış edərək, Azərbaycan Respublikası ilə sülh müqaviləsi bağlamağa tələsəcək. Əslində bu sülh müqaviləsi dərin iqtisadi böhran vəziyyətindən dəhşətli surətdə əziyyət çəkən Ermənistan və onun xalqı üçün daha çox lazımdır. Sadəcə bunu başa düşməlidirlər. Başa düşsələr də Ermənistanın xaricdəki havadarları, diaspor təşkilatları sülh müqaviləsinin bağlanmasına hər vəchlə mane olmağa, bu ölkəni səfalətə sürükləməkdə, onun bir dövlət kimi məhv olmasını sürətləndirməyə çalışırlar.

8 noyabr – Zəfər bayramımızdır. Zəfər bayramımız, 44 günlük Vətən Müharibəsinin ilhamverici qüvvələri, Ali Baş Komandanın uğurlu rəhbərliyi, Azərbaycan Silahlı Qüvvələrinin rəşadəti, II Qarabağ müharibəsinin iştirakçıları, şəhidləri, qaziləri barədə təhsilalanlara – istər ümumtəhsil, xüsusi təhsil müəssisələri şagirdləri, istərsə də orta ixtisas və ali təhsil müəssisələri tələbələri ilə Zəfər bayramıyla bağlı söhbətlərin, müsahibələrin, konfransların keçirilməsi məsləhətdir.

Vətən Müharibəsi iştirakçıları və qazilərlə görüşlərin təşkili şagirdlərin və tələbələrin vətənpərvərlik hisslərini daha da qüvvətləndirərdi.

**Ədəbiyyat:**

1. İkinci Dünya müharibəsi https://az.wikipedia.org/wiki/%C4%B0kinci_D%C3%BCnya_m%C3%BCharib%C9%99si
2. 8 noyabr - Zəfər Günüdür. https://copat.gov.az/az/news/8-noyabr-zafar-gunudur
3. Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasındakı müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa_B%C9%99yannam%C9%99si
4. Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin Bəyanatı. 31 oktyabr 2022-ci il. ttps://apa.az/az/xarici-siyaset/ucterefli-goruse-dair-soci-beyanati-tam-metn-730343

**E-mail**: amiraliyeva_i@mail.ru
**E-mail**: lale23@mail.ru

**Rəyçilər**: *ped.elm.dok., prof.* **A.N. Abbasov**
*ped.ü.fəls.dok.* **G.V. Sultanova**
**Redaksiyaya daxil oldu**: 20.09.2023